Əlixan Musayev

# Bərəkətli ailə qurmağın on əsası




**Mərhəmətli, Rəhmli Allahın adı ilə!**

# Ön söz

Əziz müsəlmanlar! Bu gün biz sizə bərəkətli ailənin necə qurulacağından danışacağıq.

Ailə, İslam cəmiyyətinin sarsılmaz təməlidir. Güclü ailə, güclü millət və dövlətin ana təməlidir. Elə buna görə də dinimizdə ailə bünövrəsinin möhkəm təməllər üzərində qurulmasına önəm verilmişdir. Bu xüsusda Uca Allah buyurur: **"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması Onun dəlillərindəndir.**

**Həqiqətən, bunda düşünən insanlar üçün ibrətli dəlillər vardır."**[1]

Diqqət edin, Uca Allah **"Ünsiyyətdə rahatlıq tapasınız"** buyurur. Bununla belə, bir çox ailələrdə rahatlıq yoxdur. Bunun səbəbi isə kişi və qadının ailə qurduğu zaman Allahın və Onun elçisinin ﷺ buyuruqlarını yerinə yetirməməsidir. Hətta müsəlmanların bir qismi bərəkətli ailənin necə qurulmasından belə bixəbərdirlər. Biz də qərara gəldik ki, bu gün sizə məhz bu mövzudan danışaq.

[1] "Rum" surəsi, 21.

# 1

## Layiqli həyat yoldaşı seçmək.

Ailənin bərəkətli olmasının 1-ci təməli layiqli həyat yoldaşı seçməkdir. Bu xüsusda Uca Allah buyurur: **"Zinakar kişi ancaq zinakar və ya müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar və ya müşrik bir kişiyə ərə gedə bilər. Möminlərə isə bu, haram edilmişdir."**[1]

Başqa bir ayədə Uca Allah buyurur: **"Müşrik qadınlar iman gətirməyincə onlarla evlənməyin. Əlbəttə, iman gətirmiş bir kəniz, sizi heyran edən müşrik bir qadından daha xeyirlidir. Müşrik**

[1] "ən-Nur" surəsi, 3.

**kişilər iman gətirməyincə *mömin qadınları* onlara ərə verməyin. Əlbəttə, iman gətirmiş bir kölə, sizi heyran edən müşrik bir kişidən daha xeyirlidir. Onlar Cəhənnəmə çağırır, Allah isə Öz izni ilə Cənnətə və bağışlanmağa çağırır. Allah Öz ayələrini insanlara bəyan edir ki, bəlkə, düşünüb ibrət alsınlar."**[1]

Deməк, mömin adam müşrik və ya zinakarla ailə qura bilməz. Elə bu səbəbdən Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qadınla dörd şeyə görə evlənirlər – var-dövlətinə, əsil-nəsəbinə, gözəlliyinə və bir də dininə görə. Çalış dindar olanı seçəsən, yoxsa yazıq olarsan."[2] Yəni dindar olanı seç ki, ailəndə xeyir-bərəkət olsun.

[1] "əl-Bəqərə" surəsi, 221.

[2] Səhih əl-Buxari, 5090.

2

## Valideynlərin razılığı.

Ailənin bərəkətli olmasının 2-ci təməli valideynin razılığıdır. Atanın izni olmadan evlənmək isə İslam şəriətinə ziddir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Nikah yalnız vəlinin razılığı ilə məqbul sayılır."[1]

Başqa bir hədisdə Rəsulullah ﷺ demişdir: "Hansi qadın vəlisinin izni olmadan nikaha girərsə, onun nikahı batildir, onun nikahı batildir, onun nikahı batildir!"[2]

---

[1] Sunən Əbu Davud, 2085; Səhih əl-Cami, 7558.

[2] Sunən Əbu Davud, 2083;

Ata-anaya itaət etmək məsələsinə gəlincə, Allaha şərik qoşmaq və ya küfr etmək istisna olmaqla, digər işlərin hamısında onlara itaət etmək vacib, asi olmaq isə haramdır. Bu xüsusda Uca Allah belə buyurur: **“De: “Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum.” Allaha heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin...”**[1]

Bu ayə və hədislərdən aydın başa düşülür ki, qızı ailəsindən istəmək vacibdir.

[1] “əl-Ənam” surəsi, 151.

3

## Evliliyin asanlaşdırılması.

Ailənin bərəkətli olmasının 3-cü təməli, evliliyi çətinləşdirməmək, əksinə, asanlaşdırmaqdır. Bəzi ailələr evlənmək istəyən gənclərin qarşısına elə tələblər qoyurlar ki, onların buna gücü çatmır və artıq pis yol düşürlər. Halbuki bu işdə hər şeydən əvvəl adamın müsəlman olub-olmamasına diqqət yetirmək gərəkdir.

Buna, sağlığında ikən Cənnətlə müjdələnmiş Ummu Suleymi رضي الله عنها misal göstərmək olar. Rəvayət edilir ki, Əbu Talhə Ummu Suleymə elçi düşür və özü ilə olduqca çox mehr gətirir. Ummu Suleym رضي الله عنها isə onun təklifini qəbul etmir. Əbu Talhə məyus halda geri qayıdır, qadının bu

qədər mehrdən imtina etdiyinə inana bilmir. Ertəsi gün daha artıq qızıl-gümüşlə onun yanına gəlir. Ummu Suleym رضي الله عنها yenə etirazını bildirib deyir: "Ey Əbu Talhə, heç bir qadın sənin kimi kişiyə yox deməz, lakin sən müşriksən, mən isə müsəlman. Mənim sənə ərə getməyim halal deyil. Gətirdiyin bu qızıl-gümüş sənin üçün əziz olsa da, mənim bunlara ehtiyacım yoxdur. Əgər İslamı qəbul etsən, bu sənin mənə verdiyin ən gözəl mehr olar, mənə isə bundan başqa heç nə lazım deyil. Ey Əbu Talhə, məgər bilmirsən ki, sizin tapındığın bütləri filan ailənin köləsi yonub düzəldir və siz onlara od vurub yandırdıqda yanıb kül olurlar?!" Qadın demək istəyir ki, bu bütlər necə ilah ola bilər ki, özlərini kimsə düzəldir, üstəlik, onları yandırdıqda, özlərini qoruya bilmirlər?!

Bu sözlər Əbu Talhənin qəlbinə yeriyir, Allah ona hidayət verir və o, dərhal soruşur: "İslamı qəbul etmək üçün mən nə etməliyəm?" Ummu Suleym ﵂ ona: "Rəsulullahın ﷺ yanına get!"– deyir. Rəsulullah ﷺ uzaqdan onu gördükdə, səhabələrinə deyir: "Əbu Talhə yanımıza gəlir. İslam nuru onun iki gözü arasından işıq saçır."[1]

Kasıb müsəlmanların ailə qurmasına yardım etmələri üçün zəngin müsəlmanlara xitab edirik: – Ey müsəlmanlar, evlənməyə imkanı olmayan gənclərə yardım edin! Necə ki, Əli ibn Əbu Talib ﵁ hicrətin 2-ci ilində, Bədr döyüşündən sonra, Mədinədə evlənərkən səhabələr

[1] Sunən əl-Kubra, Nəsai, 3/285-286; Mustədrək, əl-Hakim, 2/179.

ona yardım etmişdilər. Ənsar bu izdivaca sevindiyindən dolayı, Səd رضي الله عنه bu toy məclisi üçün bir qoç kəsdi, bəziləri də buğda gətirməklə bu xeyirdə iştirak etdilər – Allah onların hamısından razı olsun! Ənsarın səxavəti bununla bitmədi. Harisə ibn ən-Nomən əl-Ənsari رضي الله عنه Rəsulullahın صلى الله عليه وآله وسلم evinin yanında yerləşən evini Əliyə رضي الله عنه hədiyyə etdi. Axırda da, başda Əbu Bəkr رضي الله عنه olmaqla səhabələr onun ev əşyalarını aldılar.[1]

İslam qardaşlığına bir baxın! Bir-birilərinə necə canfəşanlıqla yardım edirlər.

[1] Musnəd İmam Əhməd, 1178; Təbəqat İbn Səd, 8/329.

4

## Toy məclisi İslam dininə uyğun olmalıdır.

Ailənin bərəkətli olmasının 4-cü təməli, toy məclisinin İslam dininə uyğun olmasıdır. Yəni toyda Allahın və Onun elçisinin ﷺ qadağan etdiklərindən uzaq durmaq gərəkdir. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "Allaha və axirət gününə iman gətirmiş kəs, içki məclisində oturmasın."[1]

Başqa bir hədisdə o ﷺ demişdir: "Sərxoşedici içkiyə, onu düzəldənə və düzəltdirənə, onu içənə, onu daşıyana

[1] Musnəd İmam Əhməd, 1/20.

və daşıtdırana, onu satana və alana, onu süzənə və süzdürənə Allah lənət etmişdir!”[1]

Deməak, içki olan məclisdə bərəkət ola bilməz.

[1] Musnəd İmam Əhməd, 1/316; Silsilətul-Əhadisis-Səhihə, 839.

5

## Evlənənləri təbrik etmək.

Ailənin bərəkətli olmasının 5-ci təməli evlənənləri təbrik etməkdir. Allahın elçisi ﷺ evlənənləri təbrik etdikdə dua edib belə deyərmiş:

(( بَارَكَ اللّٰهُ لَكَ، وَبَارَكَ عَلَيْكَ،
وَجَمَعَ بَيْنَكُمَا فِي خَيْرٍ ))

“Allah sənin bu evliliyini bərəkətli etsin, Onun bərəkəti sənin üzərinə olsun. O, hər ikinizi xeyir üzərində cəm etsin![1]”[2]

[1] Oxunuşu: Barəkəllahu ləkə və barəkə aleykə və cəməa bəynəkumə fi xayr.

[2] Sunən Əbu Davud, 2130.

6

# Kişinin zövcəsi üçün dua etməsi.

Ailənin bərəkətli olmasının 6-cı təməli kişinin zövcəsinin yanına girdikdə, əlini onun başına qoyub belə dua etməsidir:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَيْرَهَا وَخَيْرَ مَا جَبَلْتَهَا عَلَيْهِ وَأَعُوذُ بِكَ مِنْ شَرِّهَا وَشَرِّ مَا جَبَلْتَهَا عَلَيْهِ ))

"Allahım! Mən Səndən həm onun xeyrini, həm də ona verdiyin xilqətin xeyrini diləyirəm. Onun şərindən və ona verdiyin xilqətin şərindən Sənə sığınıram![1]"[2]

[1] Oxunuşu: Allahummə inni əs'əlukə xayrahə və xayra mə cəbəltəhə aleyh, və əuzu bikə min şərrihə və şərri mə cəbəltəhə aleyh.

[2] Sunən Əbu Davud, 2160.

7

## Cinsi yaxınlıqdan əvvəl dua etmək.

Ailənin bərəkətli olmasının 7-ci təməli yaxınlıq etməzdən əvvəl oxunacaq duadır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "Biriniz həyat yoldaşı ilə yaxınlıq etməzdən əvvəl:

((بِسْمِ اللهِ. اللَّهُمَّ جَنِّبْنَا الشَّيْطَانَ،
وَجَنِّبِ الشَّيْطَانَ مَا رَزَقْتَنَا))

"Allahın adı ilə! Allahım! Bizi şeytandan uzaqlaşdır, şeytanı da bizə bəxş etdiyin övladdan uzaqlaşdır![1]" desə və

[1] Oxunuşu: Bismilləh, Allahummə cənnibnəş-şeytanə, və cənnibiş-şeytanə mə razəqtənə.

bu yaxınlıqdan onlara bir övlad bəxş edilərsə, şeytan o övlada zərər yetirə bilməz.”[1]

[1] Səhih əl-Buxari, 1/49; Səhih Muslim, 4/155.

## 8

## Övladların sayının çoxluğuna səy etmək.

Ailənin bərəkətli olmasının 8-ci təməli ər-arvadın, övladların sayının çox olmasını istəmələridir. Bu xüsusda Allahın elçisi ﷺ belə buyurmuşdur: "Evlənin, çoxalın. Çünki Qiyamət günü mən sizin çoxluğunuzla fəxr edəcəm."[1]

Başqa bir hədisdə də o ﷺ belə buyurmuşdur: "Evlənmək mənim Sünnəmə (yoluma) aiddir. Mənim yolumdan sapanlar isə məndən deyillər. Elə isə evlənin! Çünki Qiyamət günü mən sizin çoxluğunuzla digər ümmətlər yanında

[1] Sunən əl-Beyhəqi, 7/81.

fəxr edəcəm. Evlənməyə imkanı olan *hər kəs* evlənsin. İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc *insanın* şəhvətini soyudur."[1]

Bu hədislərdən aydın başa düşülür ki, evlilikdən əsas məqsəd Allahı razı salacaq nəslin yetişdirilməsidir. Bu məsələdə bizə ən gözəl nümunə Peyğəmbərimizdir ﷺ. Onun ﷺ Xədicə رضي الله عنها ilə evliliyindən altı övladı dünyaya gəlmişdir. Bunlar Qasım, Zeynəb, Ruqiyyə, Ummu Kulsum, Fatimə və Abdullahdır رضي الله عنهم.

[1] Sunən İbn Macə, 1846; Silsilə əl-Əhadis əs-Səhihə, 2383.

9

# Övladlar üçün dua etmək.

Ailənin bərəkətli olmasının 9-cu təməli övladlar dünyaya gəldikdən sonra onların şeytandan, nəzərdən və hər cür zərərverici heyvanlardan qorunması üçün hər zaman onlar üçün dua etməkdir.

Rəvayət edilir ki, İbn Abbas ﭬ demişdir: "Peyğəmbər ﷺ Həsən və Hüseyni ﭬ şeytandan qorumaq üçün: "Babanız İbrahim öz övladları İsmail və İshaqı qorumaq məqsədilə dua edərdi"– deyər, sonra da belə dua edərdi:

((أُعِيذُكُمَا بِكَلِمَاتِ اللهِ التَّامَّةِ مِنْ كُلِّ شَيْطَانٍ وَهَامَّةٍ، وَمِنْ كُلِّ عَيْنٍ لاَمَّةٍ ))

"Hər bir şeytandan, *hər bir* zərərli həşəratdan və hər pis gözdən qorumaq üçün *sizi* Allahın tam kəlmələrinə həvalə edirəm.[1]"[2]

Bu duanı hər bir valideyn əzbər bilməli və daim öz övladları üçün oxumalıdır.

[1] Oxunuşu: Uizukumə bikəlimatil-lahittamməti min kulli şeytanin və hamməh, və min kulli aynin lamməh.

[2] Səhih əl-Buxari, 3371.

10

## Davamlı olaraq dualar etmək.

Ailənin bərəkətli olmasının 10-cu təməli ailə qurduqdan sonra hər zaman, ələlxüsus da gecənin son üçdə birində dua etməkdir:

﴿ رَبِّ ٱجْعَلْ هَٰذَا ٱلْبَلَدَ ءَامِنًا وَٱجْنُبْنِى وَبَنِىَّ أَن نَّعْبُدَ ٱلْأَصْنَامَ ﴾

1. "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et. Məni və övladlarımı bütlərə tapınmaqdan uzaqlaşdır![1]"[2]

---

[1] Oxunuşu: Rabbi-cal hazəl-bələdə aminən vəc-nubni və bəniyyə ən nəbudəl-əsnam.

[2] "İbrahim" surəsi, 35.

﴿ رَبِّ ٱجۡعَلۡنِي مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِيۚ رَبَّنَا وَتَقَبَّلۡ دُعَآءِ ، رَبَّنَا ٱغۡفِرۡ لِي وَلِوَٰلِدَيَّ وَلِلۡمُؤۡمِنِينَ يَوۡمَ يَقُومُ ٱلۡحِسَابُ ﴾

2. "Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Mənim duamı qəbul et! Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla![1]"[2]

﴿ رَبَّنَا وَٱجۡعَلۡنَا مُسۡلِمَيۡنِ لَكَ وَمِن ذُرِّيَّتِنَآ أُمَّةٗ مُّسۡلِمَةٗ لَّكَ وَأَرِنَا مَنَاسِكَنَا وَتُبۡ عَلَيۡنَآۖ إِنَّكَ أَنتَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ﴾

[1] Oxunuşu: Rabbic-alni muqiməs-salati və min zurriyyəti. Rabbənə və təqabbəl duai. Rabbənəğ-fir li və li-valideyyə və lil-mumininə yovmə yəqumul-hisab.

[2] "İbrahim" surəsi, 40-41.

3. “Ey Rəbbimiz! Bizi Sənə təslim olan, nəslimizdən də Sənə təslim olan bir ümmət et! Bizə ibadət qaydalarını göstər və bizim tövbəmizi qəbul et! Sən tövbələri qəbul edənsən, rəhmlisən![1]”[2]

﴿ رَبِّ هَبۡ لِي مِن لَّدُنكَ ذُرِّيَّةٗ طَيِّبَةًۖ إِنَّكَ سَمِيعُ ٱلدُّعَآءِ ﴾

4. “Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən.[3]”[4]

---

[1] Oxunuşu: Rabbənə vəc-alnə muslimeyni ləkə və min zurriyyətinə ummətən muslimətən ləkə, və ərinə mənasikənə və tub aleynə innəkə əntət-təvvabur-rahim!

[2] “əl-Bəqərə” surəsi, 128.

[3] Oxunuşu: Rabbi həb li min lədunkə zurriyyətən tayyibətən, innəkə səmiud-dua.

[4] “Ali-İmran” surəsi, 38.

﴿ رَبِّ أُعِيذُهُ بِكَ وَذُرِّيَّتَهُ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ﴾

5. "Ey Rəbbim! Mən onu və onun nəslini lənətlənmiş şeytandan *qorunmağı* Sənə həvalə edirəm![1]"[2]

﴿ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا ﴾

---

[1] Oxunuşu: Rabbi uizuhu bikə və zurriyyətəhu minəş-şeytanir-rəcim.

**Qeyd:** qız uşağı üçün "uizuhu" əvəzinə "uizuhə", iki uşaq üçün "uizuhumə", oğlan uşaqları üçün "uizuhum", qız uşaqları üçün "uizuhunnə", oğlan və qız uşaqları üçün "uizuhum" deyilir.

[2] Bu duanın əsli "Ali-İmran" surəsinin 36-cı ayəsindəndir.

6. “Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et![1]”[2]

﴿ رَبِّ أَوۡزِعۡنِيٓ أَنۡ أَشۡكُرَ نِعۡمَتَكَ ٱلَّتِيٓ أَنۡعَمۡتَ عَلَيَّ وَعَلَىٰ
وَٰلِدَيَّ وَأَنۡ أَعۡمَلَ صَٰلِحٗا تَرۡضَىٰهُ وَأَصۡلِحۡ لِي فِي ذُرِّيَّتِيٓ ﴾

7. “Ey Rəbbim! Mənə, mənim özümə və valideynlərimə bəxş etdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı işləri görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et![3]”[1]

[1] Oxunuşu: Rabbənə həb lənə min əzvacinə və zuriyyatinə qurratə əyunin vəc-alnə lil-muttəqinə imamə.

[2] “əl-Furqan” surəsi, 74.

[3] Transkripsiyası: Rabbi əvzini ən əşkura nimətəkəl-ləti ənamtə aleyyə və alə valideyyə

Hədisdəki dua:

(( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ جَارِ السُّوءِ، وَمِنْ زَوْجٍ تُشَيِّبُنِي قَبْلَ المشِيبِ، وَمِنْ وَلَدٍ يَكُونُ عَلَيَّ رَبّاً، وَمِنْ مَالٍ يَكُونُ عَلَيَّ عَذَاباً، وَمِنْ خَلِيْلٍ مَاكِرٍ عَيْنُهُ تَرَانِي، وَقَلْبُهُ يَرْعَانِي؛ إِنْ رَأَى حَسَنَةً دَفَنَهَا، وَإِذَا رَأَى سَيِّئَةً أَذَاعَهَا ))

8. "Allahım, pis qonşudan, saçlarımı vaxtsız ağardacaq həyat yoldaşından, mənə ağalıq edəcək övladdan, məni əzaba düçar edəcək mal-dövlətdən, həmçinin məni güdən və mənə hiylə quran, yaxşı əməllərimdən danışmayan, səhvimi

və ən əmələ salihən tərdahu və əslih li fi zurriyyəti.

[1] "əl-Əhqaf" surəsi, 15.

isə hər tərəfə yayan hiyləgər dostdan Sənə sığınıram![1]"[2]

[1] Oxunuşu: Allahummə inni əuzu bikə min caris-sui və min zovcin tuşeyyibuni qabləl-məşibi və min vələdin yəkunu aleyyə rabbən və min malin yəkunu aleyyə əzabən və min xəlilin makirin aynuhu tərani və qalbuhu yərani, in rəa həsənətən dəfənəhə və izə rəa seyyiətən əzaəhə.

[2] ət-Təbərani, 3/1425; Silsilə əl-Əhadis əs-Səhihə, 3137.